# Silaha sarılan həkim - Həsən Məmmədovun Vətən müharibəsi hekayəsi

**44 günlük Vətən müharibəsində xalqımızın igid övladları ölkəmizin ərazi bütövlüyü, suverenliyi uğrunda haqq savaşında qəhrəmanlıqla iştirak etdilər. Bəziləri döyüşlərdə, bəziləri isə arxa cəbhədə əllərindən gələni əsirgəmədilər. Xüsusən də həkimlərimiz...**

AZƏRTAC xəbər verir ki, Qazax Rayon Mərkəzi Xəstəxanasının həkimi Həsən Məmmədov Tibb Universitetinin Hərbi tibb fakültəsinin 5-ci kursunda oxuyanda Vətən müharibəsi başlayıb və tələbə yoldaşları ilə birlikdə könüllü şəkildə döyüşlərə qatılıb. Deyir ki, hər kəsin ürəyi həmin günlərdə Vətən sevgisi, torpaqlarımızın azad edilməsi arzusu ilə döyünürdü. Həsən də təhsilini yarımçıq saxlayıb, silaha sarılıb: "Vətən müharibəsi başlayanda avtobuslarla hərbi hissəyə yolla düşdük. Səhər idi, Günəş yeni çıxmışdı, yol kənarında qoca ər-arvad dayanmışdı. Dizləri üstə çöküb bizim üçün dua edirdilər. O mənzərəni heç zaman unutmaram. İnsanlar yolumuzu kəsib, bizə dəstək olurdular. Onsuz da dövlətimiz bizi hər cür təminatla dəstəkləyirdi. Amma insanlar da su, şirniyyat, əllərinə nə keçirdisə, bizim üçün verirdilər. Deyirdik, maşında yer yoxdur. Yenə də gətirirdilər. Bu, xalqın birliyi idi, öz əsgərinin arxasında dağ kimi dayandığını göstərirdi, bu, bizə əlavə ruh yüksəkliyi verirdi".

Həsən deyir ki, ilk döyüşü Talış kəndi uğrunda, Mübariz İbrahimovun şəhidlik zirvəsinə yüksəldiyi yerlərdə olub. "Mübariz postundan yuxarı qalxdıq. Ora erməni hərbçilər ilə üzbəüz idi. Döyüşdük, şəhidlərimiz olsa da, tapşırığı yerinə yetirə bildik. Yeri gəldi yaralılarımıza yardım göstərdik, şəhidlərimizin nəşini kənarlaşdırdıq", - deyə xəstəxananın Təcili yardım şöbəsinin həkimi, Vətən müharibəsi iştirakçısı o günləri xatırlayır.



Həmsöhbətimiz Talış, Suqovuşan və digər yüksəkliklər istiqamətində gedən döyüşlərdə, daha sonra 2022-ci il sentyabr təxribatının qarşısının alınmasında və antiterror tədbirində də iştirak edib.

O, Vətən müharibəsindən sonra yarımçıq qalan təhsilini bitirib və həkim kimi fəaliyyətini davam etdirir. İndi təcili yardıma ehtiyac olanlara şəfa göstərmək üçün can atır. "Həkim, xüsusən hərbi həkim müqəddəs peşədir. Düşmən həmişə birinci həkimləri vurmağa çalışırdı. Tibbi heyətə zərər vurmağa çalışırdılar ki, yaralılara yardım göstərə bilməyək. Buna baxmayaraq, əsgərlərimizə sipər olurduq ki, onlar sağ çıxsınlar", - deyə Vətən müharibəsi iştirakçısı H.Məmmədov əlavə edir.

Bəli, Vətən müharibəsi xalqımızın necə döyüşkən, mətin və cəsur olduğunu bir daha dünyaya göstərdi. Müharibədə peşəsindən, çalışdığı sahədən asılı olmayaraq, hər kəs səfərbər olub Vətən torpaqlarının azadlığı uğrunda savaşa qalxdı və bu savaşda şanlı Qələbə qazandı. Dünya Azərbaycan xalqının gücünü bir daha görmüş oldu.

//Azərbaycan. - 2025.- 23 oktyabr (№227).- S.10.